# İRƏVANDA TÜRK ƏHALİYƏ QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMLARI - "ERMƏNİ-MÜSƏLMAN DAVASI" KONTEKSTİNDƏ

***Əsədulla QURBANOV,***
*BDU-nun İlahiyyat Fakültəsinin*
*İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin*
*rəhbəri, professor, fəlsəfə elmləri doktoru*

***Elvin BABAYEV,***
*AMEA-nın Əlyazmalar İnstitutunun doktorantı,*
*BDU-nun İlahiyyat Fakültəsinin İslamşünaslıq*
*Elmi-Tədqiqat Mərkəzinin elmi işçisi,*
*babayevelvin90@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Türk, soyqırım, İrəvan, erməni, terror.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Турок, геноцид, Иреван, армянин, террор.*
***KEY WORDS:*** *the Turk, genocide, Irevan, armenian, terrorism.*

Əsrlər boyu türk xalqları dünyanın müxtəlif bölgələrində geniş ərazilərdə məskunlaşmışlar. Uzaq Sibirdən Avropayadək uzanan ərazilərdə türkdilli xalqların mədəniyyətinin izlərinə rastlanmaqdadır. Həmçinin onlar bir çox mədəniyyətlərin ortaya çıxmasına da təsir göstərmişlər. Oğuz yurdu olan Göyçə mahalı da belə yaşayış məskənlərindən biridir. Bu torpaqlar mərhələ-mərhələ Azərbaycandan qoparılaraq orada qondarma Erməni Respublikası yaradılmış və bu gün xalqımız üçün yad, əlçatmaz, ünyetməz bir yerə çevrilmişdir. Ermənilər tədricən yer adlarımızı dəyişdirərək erməni mənşəli adlarlarla əvəz etmiş, Azərbaycan türklərinin bu ərazidəki izlərini tarixdən silməyə çalışmışlar [1, s. 5].

2006-cı ildə Ermənistan Respublikası Yanında Daşınmaz Əmlakın Kadastrı Dövlət Komitəsinin sədri Manuk Vardanyan jurnalistlər qarşısında çıxış edərək məlumat vermişdir ki, Ermənistanın ilk milli atlası nəşr olunacaqdır. Onun bildirdiyinə görə, həmin atlasda 40 min coğrafi ad qeydiyyata alınacaqdır ki, bu zaman başqa dillərə məxsus 8-10 min coğrafi ad dəyişdirilərək erməni adları ilə əvəz olunacaqdır. M.Vardanyanın qeyd etdiyi "başqa dillərə məxsus" (türklərə) həmin 8-10 min coğrafi ad məhz göstərilən torpaqlardan deportasiya edilmiş azərbaycanlılara məxsusdur [2, s. 5]. Digər yer adları isə çox güman ki, 2006-cı ilə qədər artıq dəyişdirilmişdi.

Həmin ərazidə mövcud olan türk mənşəli coğrafi adlar, müxtəlif bölgələrlə əlaqədar xalq arasında geniş yayılmış əfsanə və rəvayətlər, bir çox tarixi hadisələr, qədim Oğuz qəbirləri və kurqanları Azərbaycan türklərinin bu torpaqların ən qədim sakinləri olduğunu bir daha sübuta yetirir. Azərbaycan türklərinin tarixən məskunlaşdığı bu əraziyə ermənilər, əsasən Türkmənçay müqaviləsindən (1828) sonra köçməyə başlamışlar [3, s. 44]. Bu isə çar Rusiyasının iki türk xalqını bir-birindən ayrı salmaq üçün bölgədə "bufer zona" yaratmaq planlarının bir parçası idi. Ermənilər daima yaşadıqları ölkələrə xəyanət edərək, onların düşmənləri ilə gizli sövdələşmələrə girmişlər. Belə ki, 1915-1916-cı illərdə Trabzon, Van, Bitlis və Ərzurum vilayətlərinin ruslar

tərəfindən, 1920-ci ildə isə Kilikiyanın fransızlar tərəfindən işğalı ərəfəsində ermənilər rus və fransız komandirlərin tabeçiliyində öz intiqam hislərinin ardınca getmişlər [4, s. 30-31]. Tarix boyu buna oxşar bir çox halları sadalamaq olar.

1828-ci ildə İrəvan şəhərində 1807 türk ailəsi, yəni 7331 nəfər azərbaycanlı yaşayırdısa, 567 erməni ailəsi, o cümlədən 2369 nəfər erməni məskunlaşmışdı [1, s. 4]. Bu köçürmədə böyük rolu olan rus generalı Paskeviç ermənilərin iç üzünü gördükdən sonra onlar barəsində demişdir: "Bu xalqda acgözlüyün və şöhrətpərəstliyin sərhədi və hüdudları yoxdur" [5, s. 24]. Zaman keçdikcə ermənilər törətdikləri soyqırımları sayəsində bu rəqəmlərin onların xeyrinə dəyişməsinə nail olmuşlar. Səbəb isə bu torpaqlarda dənizdən-dənizə olan "Böyük Ermənistan" yaratmaq istəyi idi. 1905-ci ildə erməni yazıçısı Aknuni ermənilərə xitab edərək xarici dövlətlər tərəfindən onlara vəd olunan muxtariyyət haqqında rus çarı ilə razılaşma əldə edildiyi barədə 24 məktubdan ibarət bir məcmuə çap etdirdi. Məcmuə Erməni Qiyamçı Federasiyası tərəfindən ermənilər arasında yayıldı [6, s. 26].

1905-1906-cı illər Rus-Yapon müharibəsində Rusiyanın məğlubiyyətindən sonra orada baş verən iğtişaşlar (ovaxtkı paytaxt Peterburqda 9 yanvar 1905-ci ildə baş verən "Qanlı bazar" hadisələri) nəticəsində 6 fevral 1905-ci ildə Qafqazda ilk dəfə türk-erməni qarşıdurması yarandı. Rus alayında xidmət edən bir erməni həmin ilin 6 fevralında bir türkü öldürmüşdü [7, s. 15]. Əllərinə fürsət düşən ermənilər əvvəlcə Bakıda, sonra isə İrəvan (İrəvan quberniyasında 188 kənd dağıdılmışdı) [8, s. 167], Naxçıvan, Gəncə, Qarabağ və Tiflisdə qırğınlar törətmiş, 200-dən artıq Azərbaycan kəndini viran qoymuşdular [9, s. 22]. Tarixə "erməni-müsəlman davası" kimi düşən bu qırğınları təşkil etməkdə məqsəd milli azadlıq hərəkatlarının qarşısını almaq, Qafqazda qarışıqlıq yaratmaq idi. Çar Rusiyasının erməniləri silahlandırması, orduda xidmət edən erməni hərbçilərin daşnaklara yardımı 1905-1906-cı illərdə erməni terrorçularının İrəvanda və onun ətrafındakı Azərbaycan türkləri yaşayan kəndlərdə də qətllər törətməsiylə nəticələndi. Daşnakstyün partiyasının liderləri "Böyük Ermənistan" xülyası naminə İrəvan, Gəncə və Qarabağda bütün türklərin qətlinə fərman vermişdilər ki, məqsəd bu yerlərin türklərdən birbaşa təmizlənməsi idi.

Eçmiədzin ətrafındakı kəndlər dağıdılmış, 200 cilddən artıq Qurani-Kərim və digər müqəddəs kitablar yandırılmışdı. Eçmiədzin erməni monofizit məzhəbi olan Qriqoryan xristianlarının mərkəzi idi. Onların inancına görə, Həzrət İsa burada qeybə çəkilmiş və burada da zühur edəcəkdir. Onlar özlərini xristian dünyasının bir parçası hesab etsələr də, bir çox kəlami məsələlərdə və öz Qriqoryan kilsələri ilə xristian dünyasından xeyli uzaqda görünürlər.

Tarixçi alim Nazim Mustafayevin araşdırmalarına əsasən, 1905-ci ildə erməni quldurları 4 dəfə qırğın törətmişlər: 20-22 fevral, 23-26 mart, 18 sentyabrda. 1906-cı ilin 27 mayında və 8-9 iyununda da qətllər baş vermişdir [10, s. 119]. İrəvan quberniyasında 10 mindən çox azərbaycanlı soyqırımına məruz qalmışdır. Azğınlaşmış erməni daşnakları çar hakimiyyətindən belə çəkinmirdilər [11, s. 102]. Əllərinə düşən kitablara və Qurani-Kərimə od vurub yandırırdılar. Ermənilərin qadın-kişi olmasından asılı olmayaraq, qocalara, eləcə də uşaqlara etdikləri zülmü qələmə almaq çətindir [12, s. 15]. Ermənilər bu soyqırımları zamanı "öz düşmənlərini" müsəlman adlandırdığından onun ibadət ocaqlarını - məscidlərini və müqəddəs saydığı digər yerləri də yerlə-yeksan edərək xarabalığa çevirirdilər. Bununla onlar xristian dünyasında özünə dayaq qazanmaq və sanki ümumi düşmənə qarşı tək dayandığını nümayiş etdirmək niyyəti güdürdülər. Ancaq soyqırımını törədən ermənilər olsa da, daima özlərini əzilən tərəf kimi göstərmişlər.

1918-ci ilin mart ayında növbəti qırğınlar baş vermişdir. İrəvan quberniyası ərazisində, Qarabağ, Naxçıvan və Qarsda törədilmiş qırğınlar nəticəsində 50 mindən artıq soydaşımız misli görünməmiş vəhşiliklə qətlə yetirilmişdir [9, s. 23]. 1924-cü ildə İstanbulda çap olunan "Müxtəsər Azərbaycan Tarixi" kitabında Cahangir Aslanoğlu bu qırğınlar ilə əlaqədar olaraq yazmışdır: "Bakıda mart hadisələrini törədən və Şərqi Azərbaycanı tamamilə dəmir və atəşdən keçirən daşnaklar cənubda da sakit oturmadılar. İrəvan vilayətinin bütün kəndləri Andranik, Dro və sair sərkərdələr tərəfindən yer ilə yeksan və əhalisi məhv edildi [3, s. 45]. Bu soyqırımları təkcə azərbaycanlıların özlərinə deyil, o cümlədən bütün türk mədəniyyətinə, müsəlman aləminə aid olan hər şeyə qarşı yönəlmiş, mədəniyyət abidələri və tarixi izləri də silmək məqsədi daşımışdır. Belə ki, qətllərlə yanaşı, məscidlər dağıdılmış, qəbirlər yerlə yeksan edilmişdir.

İrəvan hadisəsi Zaqafqaziya seyminin 5, 7, 19, 20 fevral tarixli iclaslarında böyük gurultuya səbəb olduğundan İrəvana heyətlər göndərildi. Bu heyətlər İrəvan vilayətində 211 türk kəndinin və təqribən 100 minə qədər əhalinin məhv edildiyini sübuta yetirdilər [10, s. 145].

Bununla bağlı erməni müəllifi Zaven Korkodyan yazırdı ki, 1918-1920-ci illərdə daşnak mauzerçiləri Ermənistanda yaşayan 575 min azərbaycanlıdan 565 minini qanına qəltan etmiş və yaxud silah gücünə didərgin salmışdır. Bütövlükdə isə daşnaklar 1905-1907 və 1918-1920-ci illər ərzində 500 mindən artıq azərbaycanlını indiki Ermənistan ərazisində qətlə yetirmişdilər [11, s. 90]. Ermənilər buna "erməni-müsəlman davası" adını verərək Qərbdə, əsasən də xristian aləmində özlərinə bəraət qazandırmaq istəyirdilər. İngiltərənin məşhur dövlət xadimlərindən olan Lord Kerzon bu soyqırımları haqqında belə deyirdi: "Siz erməniləri 8 yaşında pak və məsum bir qız kimi təsəvvür edirsiniz. Bu fikirdə çox yanılırsınız. Halbuki ermənilər özlərinin son vəhşi davranışları ilə nə qədər qantökən bir xalq olduqlarını qeyd-şərtsiz isbat etmişlər" [11, s. 84].

1975-1991-ci illərdə fəaliyyət göstərmiş ASALA terror təşkilatı da öz davamçılarının iziylə getmiş, müxtəlif terror hadisələri və qətllər törətmişlər. ASALA adının açıqlaması terror təşkilatının hansı məqsədlərə xidmət etdiyini ortaya qoyur: "Armenian Secret Army for the Liberation of Armenia". "Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu" kimi tərcümə olunan ASALA terror təşkilatının məqsədi öz daşnak babalarının ardınca gedərək dənizdən-dənizə uzanan "Böyük Ermənistan" xəyalını gerçəkləşdirmək və "erməni soyqırımı" adlandırdıqları 1915-ci il hadisələrini dünya dövlətlərinə tanıtmaq, Türkiyədən bunun qisasını almaq və bu yolda çoxlu qətllər törətməkdir. Bu terror qruplaşmasını Livan erməniləri yaratsalar da, dünya miqyasında siyasi dəstək verən və bəzi mesajları Qərb cəmiyyətinə çatdıran, əsasən, Fransa və ABŞ erməniləri diasporasıdır [4, s. 22]. Həmçinin məqsədlərinə Şərqi Türkiyə, Şimali İran, Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ bölgələrində "Böyük Ermənistan"ı qurmaq daxildir. Təşkilatın tərkibindəki qrup üzvləri Qarabağ döyüşlərində də fəal iştirak etmişlər. "Nyu-York Tayms" qəzetinə müsahibə verən Akop Akopyan etiraf etmişdir ki, onların əsas hədəfi türk rejimi və onlarla əməkdaşlıq etməyən ermənilərdir. Ermənilər lazım gələrsə, bütöv erməni maraqları üçün öz millətindən olan insanların da gözünün yaşına baxmayacağını 1988-ci ilin fevral ayında Sumqayıt hadisələri zamanı sübuta yetirdilər. Bunu hazırda Azərbaycanda yaşayan ermənilərin özləri də etiraf etmişlər.

Ermənilərin Azərbaycanda törətdikləri soyqırımı hadisələrinə verilən ilk siyasi qiymət isə Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi olmuşdur.

# ƏDƏBİYYAT


1. Bayramov İbrahim. Qərbi Azərbaycanın Türk Mənşəli Toponimləri. Bakı: 2002.
2. Mahmudov Yaqub, Nazim Mustafa, Məhərrəmov Elmar. Vandalizm: Tarixi Adlara qarşı Soyqırımı. Bakı: 2006.
3. Həbiboğlu Vəli, Arzumanlı Vaqif, Muxtarov Kamil. 1918-ci il Qırğınları. Bakı: 1995.
4. Timur Taner. 1915 ve sonrası Türkler ve Ermeniler. Ankara: 2000.
5. Süleymanov Mehman. Erməni Millətçiliyi və Təcavüzkarlığı Tarixindən. Bakı: 2008.
6. Qəhrəmanov Nazim. Birinci Dünya Müharibəsində Qafqaz Cəbhəsində Erməni Amili. Bakı: 2008.
7. Görüryılmaz Mustafa. Türk Qafqaz İslam Ordusu və Ermənilər. Bakı: 2009.
8. Əroğul Əlisahib. Erməni-Daşnak Faşizmi və Azərbaycan. Bakı: 2007.
9. Məqalələr arxivi / Azərbaycanlılara Qarşı Soyqırımları: mərhələləri və nəticələri / http://nazimmustafa.info/
10. Bayramov Aslan. Tarixi Faciələrimiz: Deportasiya, repressiya və soyqırımı. Sumqayıt: 2015.
11. Məmmədli Atamoğlan. Ermənilərin Gerçək Tarixi. Bakı: 2008.
12. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə Erməni-Müsəlman davası. Bakı: 1993.

А.Гурбанов, Э. Бабаев

## ГЕНОЦИД СОВЕРШЕННЫЙ В ДВАДЦАТОМ ВЕКЕ ПРОТИВ ТЮРКСКОГО НАСЕЛЕНИЯ ИРЕВАНА В КОНТЕКСТЕ “АРМЯНО-МУСУЛЬМАНСКОГО СТОЛКНОВЕНИЯ”

### РЕЗЮМЕ

В начале XX века армянские дашнаки в Баку и в других регионах Азербайджана организовали геноцид. В ходе геноцида армяне, не довольствуясь убийством тюркского населения, также старались уничтожить памятники культуры. Иреван исторически был тюркской землёй. Причиной нахождения этих земель сегодня под оккупацией, является результат геноцида совершенный на протяжении многих лет. В то время как Азербайджан является примером мультикультурализма, армяне остаются моноэтническим народом, что свидетельствует о явной ненависти к соседним народам. Сегодня армянское правительство, как один из сторонников терроризма в мире, продолжает покровительствовать террористическим группировкам на своих территориях.

A.Khurbanov, E.Babaev

## GENOCIDES COMMITTED AGAINST TURKISH NATIONS IN IREVAN IN THE BEGINNING OF THE 20TH CENTURY IN THE CONTEXT OF “ARMENIAN-MUSLIM CLASHES”

### SUMMARY

Armenian dashnaks committed genocidal massacre in Baku and other regions of Azerbaijan at the beginning of XX century. During the genocide Armenians who were not satisfied with the murder of the Turkic population, also trued to destroy cultural monuments. Irevan has been considered as a Turkish territories throughout the history. The massacres which happened throughout the years in mentioned lands caused the invasion of them eventually. Nevertheles Azerbaijan can be considered as a good example for the development of multiculturalism, Armenians are on the way to be as a monoethnic society. Certainly this is the result of the nationalist and fascist approaching to the neighbour nations. The Armenian goverment creates very suitable conditions for the settlement of the terror groups in its territories. Thus, its possible to say that Armenia is one of main supporters of terrorism in the world.